**HƏSƏN QARAYEV**
***Azərbaycan Dövlət İqtisad Universiteti***

# AZƏRBAYCAN FOLKLORUNDA FACİƏVİLİYİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR

Azərbaycan folklorunda faciəvilik motivlərinin yaranmasını şərtləndirən başlıca səbəb ictimai – siyasi, fəlsəfi amillər olmuşdur. Məlum olduğu kimi, hər bir xalq həmişə öz səadəti, xoşbəxtliyi və azadlığı uğrunda mübarizədə olmazın əzablar, iztirablar, məşəqqətlər çəkmiş, neçə - neçə igid öz canından keçmiş, amma heç zaman öz amal və əqidələrindən dönməmişlər.

Lakin onlar cismən məhv olsalar da, mənəvi cəhətdən yaşayır, gələcək nəsillərə nümunə olaraq qalırlar. Dünyanı, ölkələri, millətləri qəhrəmansız təsəvvürə gətirmək mümkün deyil. Ölümün soyuq nəfəsi qəhrəmanlığa olan ehtirası söndürə bilmir. Ona görə də faciəviliyi bir estetik kateqoriya kimi həmişə qəhrəmanlıqla sıx əlaqədə öyrənirlər. Daha doğrusu, qəhrəmanlıq – faciəviliyi doğuran əsas amillərdən biri kimi qəbul edilir. Hətta bəzi tədqiqatçıların fikrincə qəhrəmanlıq olmadan həqiqi faciə də mümkün deyil (1). Doğrudan da xüsusi bədii – estetik anlayış kimi qəhrəmanlıqla faciəvilik arasında möhkəm əlaqə vardır. Onların ikisi də gerçəkliyin müsbət qiymətləndirilməsini, həyata, insana heyranlıq, valehlik, ehtiram və pərəstiş münasibətlərini ifadə edir. Qəhrəmanlıq faciənin ilk əlamətidir. Faciəviliyin geniş mahiyyətini və onun folklorda təzahür formalarını düzgün şərh etmək üçün qısa da olsa, qəhrəmanlıq kateqoriyasını izah etmək lazım gəlir.

Bildiyimiz kimi, qəhrəmansız dövlət, qəhrəmansız millət, qəhrəmansız xalq qanadsız quş, pəncəsiz pələng və dişsiz şir kimidir. Qəhrəmanlıq olmayan yerdə haqq, ədalət və səadət yoxdur. Qəhrəmanlıq hissi keçirməyən insan mübarizə də aparmır. Mübarizə aparmayanda isə insanlıq və gözəllik məhv olur. Qəhrəmanlıq həyatın bəzəyidir. Fəlsəfi-estetik kateqoriya kimi qəhrəmanlıq zövq, ağıl, məslək və ideal ilə bağlıdır.

Xalq tarixdə önəmli yer tutan, yaddaşlara keçən qəhrəmanlar haqqında gözəl nəğmələr, şirin mahnılar, əzəmətli dastanlar qoşaraq yaşatmışdır. Bu qəhrəmanların şəninə qoşulmuş həmin nümunələrin ancaq sonlarında bir qayda olaraq, oxucu və ya dinləyici faciə ilə qarşılaşır. Lakin, bu folklor mətnlərinin əsas qayəsini təşkil edən qəhrəmanlıq o qədər onları valeh edir ki, heç sonluğun belə qurtarması bədbinlik yarada bilmir. Ona görə də təsadüfi deyil ki, faciəni "əvəzsiz itki haqqında hüznlü nəğmə" və "ölməzlik barəsində nikbin himn" adlandırırlar. Bu ifadələrin düzgünlüyünə inanmamaq mümkün deyil. Çünki, həqiqətən qəhrəmanlıq oxucu ürəyini elə vəcdə gətirir ki, faciəni heç hiss eləmirsən.

Hələ yazıçılar xalqın qəhrəman deyə tanıdığı insanlar haqqında monumental faciələr yazana qədər, şifahi xalq ədəbiyyatında onların barəsində xüsusi nümunələr yaranır. Şifahi xalq ədəbiyyatında Fərhad surətini araşdırarkən prof. M.H.Təhmasib yazırdı ki, demək olar ki, Fərhad surəti Nizamidən əvvəl də, sonra da Azərbaycanda var idi. Bu surət bu gün də xalq içərisində igid, dönməz, əyilməz, fədakar aşiq rəmzi kimi məşhurdur. Onun haqqında indi də xalq arasında "Fərhad və Şirin", "Xosrov və Şirin", "Şahzadə Süleyman" və s. bu kimi adlarda müxtəlif xalq dastanları yaşamaqdadır (2, 33-34). Bu onu göstərir ki, el içindən çıxan, sonralar şöhrətlənib məşhurlaşan qəhrəmanlar faciələrə uğrasalar da xalq onları unutmur, yaratdığı əsərlərə köçürür. Qəhrəman bir həyatdan başqasına keçir.

Əslində faciələr ona görə əbədiyyət qazanır ki, onun mayasında qəhrəmanlıq gizlənmişdir. Qəhrəmanlıqla isə həmişə bəşəriyyət fəxr etmişdir. Hətta belə bir məsəl var ki, "Qalib gələni mühakimə etməzlər". Çünki qəhrəman hər cür təhlildən, mühakimədən yuxarıda durur. Yenə də estetik kateqoriya kimi yanaşsaq, qəhrəman həyatın ən ali üzvü, qəhrəmanlıq insanlığın uçan qanadlarıdır. Dünyada hər şeyə qadir olan xalq, hər şeyi dəyişən zaman, dünyanı idarə edən həqiqət qəhrəmanı yetirir, ucaldır, yaşadır. Buna görə də faciə qəhrəmanı əzəmətli, xalq kimi ulu, zaman kimi əbədi, həqiqət kimi ölməzdir. O, insanların şüurunda, qəlbində və ruhunda yaşayır.

Azərbaycan xalqının şanlı oğlu, general M.H.Quliyev qəhrəmanlar haqqında danışanda yazırdı ki, "..... hər bir xalq ən sevdiyi adamları nəsildən

nəslə yaşadır, onların haqqında dastanlar qoşur, hətta öz cəngavərlərini xeyli ideallaşdırıb fövqəlbəşər bir qüvvəyə çevirir. Bu, xalqın gözəl bir arzusundan – övladlarını cəngavərlik, igidlik ruhunda tərbiyə etmək istəyindən doğur. Babək, Cavanşir, Xətayi, Koroğlu, Qaçaq Nəbi, Səttarxan haqqında dastanlar, nəğmələr belə yaranıb. Bunlardan əlavə, şifahi ədəbiyyatda nə qədər qorxmaz nağıl qəhrəmanları var. Bunlar bizim hamımıza məğrur, igid, mübariz olmağı öyrədir." (3, 3) Şifahi ədəbiyyat nümunələrində xalqın təbiət və cəmiyyət hadisələrinə münasibəti həmçinin, fəlsəfi dünyagörüşü öz poetik ifadəsini tapmışdır. Böyük rus tənqidçisi V.Q.Belinski "Rus xalq nağılları" məqaləsində ümumən folklora aid olan fikrini belə ifadə edirdi ki, xalq ədəbiyyatı elə bir güzgüdür ki, onda xalqın həyatı bütün səciyyəvi cəhətləri və özünəməxsus əlamətləri ilə əks edilir. Bir xalqın folkloru eyni zamanda onun şüuru deməkdir (4).

Xalq arasında yaranan şifahi ədəbiyyat nümunələri qədim zamanlardan başlayıb bizim günlərə qədər davam edib gəlmişdir.

Qədim insanları qüdrətli və qorxunc təbiət hadisələri – özü də müəmmalı və anlaşılmaz şəkildə əhatə etmişdi. Gündüz və gecə, yağış və ildırım, tufan və zəlzələ, bulud və şimşək kimi gündəlik həyatda gördüyü təbiət sirlərini ibtidai insanlar dərk edəcək halda deyildi. Sənət və şeir, insanın yaratdığı ilk qədim bədii obrazlar həmin bu təbiət sirlərini və həyatı öyrənmək, onlara müəyyən qədər təsir etmək zərurətindən yaranırdı. Məsələn, rəqs, oyun və nəğmələr insan əməyini nizama salır, ahəngləşdirir, həyatın yaxşılaşmasına kömək edirdi.

Öz mənşəyi etibarilə çox uzaq keçmişlə bağlı olan bir sıra mərasim nəğmələrindən görünür ki, qədim azərbaycanlı da adi təbiət qüvvələrini, hətta təsərrüfat həyatında çox böyük təsirə malik olan fəsilləri öz təsəvvüründə müəyyən şəklə salmış, onu canlı, bəzən insana oxşar təsəvvür etmişdir.

İstər zərdüştilik, istərsə də bundan əvvəlki qədim ibtidai tayfa – qəbilə "dini" görüşləri nağıllara, əfsanələrə təsir etmişdir. Bu təsirlərlə bağlı bir sıra surətlər, hətta bəzən süjetlər əmələ gəlmişdir ki, bunların da bəzilərinin qalıqları şifahi ədəbiyyat nümunələri ilə bizim dövrümüzə qədər gəlib çatmışdır. Xalq içərisində geniş yayılmış olan "Fatmanın inəyi" və "Ovçu Pirim" kimi nağıllarda, məsələn, totemizmin qalıqları yayılmışdır. "Fatmanın

inəyi" adlı nağılda inək xariqüladə qüvvəyə malik bir totem kimi təsvir edilmişdir. O, anadan yetim qalmış Fatmanı himayə edir, analığının ona tapşırdığı çətin işləri yoluna qoyub, onu xoşbəxtliyə çıxardır.

Faciəvilik də qədim insanların işi, mübarizəsi və dünyagörüşü ilə əlaqədar olaraq meydana çıxmış və intişar tapmışdır. Şifahi ədəbiyyat nümunələri – onun ayrı – ayrı janrlarında yaranmış əsərlər bunu sübut etməkdədir. Hələ vaxtı ilə qədim tarixçilərin yazıya köçürdükləri "Astiaq" əfsanəsi bu qəbildəndir. Başdan – ayağa faciə ünsürlərinin hakim olmasına baxmayaraq, bu əsər insanda vəfa, sədaqət, vətənpərvərlik, gözəllik duyğuları oyadır. Çünki onun ideyası faciəvi finalla qurtarmasından asılı olmayaraq, vətənpərvərlik hisslərinə həsr edilmişdir. Hakimiyyəti əlindən getmiş şah vəzirinə deyir ki, sən şahlığa özün sahib ola biləcəyin halda onu yadlara niyə verdin? (2, 23-26; 6, 58-71) Bununla da qəddar, zalım, qaniçən padşah birdən – birə gözümüzdə ideallaşır. Elə faciənin də əsas əlamətlərindən biri budur.

İctimai həyatda baş verən müxtəlif hadisələr, azadlıq uğrunda ölən şəxsiyyətlərin qəhrəmanlığı, onların məğlubiyyətindən doğan kədər duyğuları folklor nümunələrində özünün təsirli əksini tapmışdır. Belə nümunələrdə düşmənin amansızlığı nəticəsində ölən igidlərin mərdliyi, qoçaqlığı həzin bir dillə tərənnüm olunur, oxucuda və dinləyicidə düşmənə qarşı kəskin nifrət hissi oyadır:

Ay nədən güldü, getdi,
Gecəni böldü, getdi.
Düşmən aman vermədi,
Cavanlar öldü, getdi. (6, 468)

Yaxud:

Apardı tatar məni,
Qul edər satar məni.
Yarım vəfalı olsa,
Axtarıb tapar məni (6, 470)

Faciəviliyi əmələ gətirən ictimai – siyasi amillər içərisində toqquşan qüvvələrin barışmazlığı, bir – birinə qarşı tam düşmən mövqedə dayanması mühüm yer tutur. Şəxsiyyətin tragizmini onun əhatə olunduğu mühit, şərait

yaradır. O, çox vaxt ziddiyyətin dərinliyini görür, mübarizənin çətin, qələbənin qeyri – mümkün, öz ölümünün isə labüd olduğunu bilir, lakin inadından və əzmindən dönmür. Uğrunda vuruşduğu ideallarıṇ doğruluğu, paklığı, qüdsiyyəti ona qətiyyət və qüvvət verir. Özündən qat – qat güclü olan qüvvələrlə toqquşmada qəhrəman ölməklə öz ideallarını qoruyub yaşadır.

Cəmiyyətdə faciəviliyi yaradan ictimai səbəblərdən biri də mövcud tələblərlə həmin tələbləri həyata keçirməyə imkan verməyən şərait arasındakı ziddiyyətdir. F.Engels yazırdı ki, faciəviliyin əsasında "tarixi zərurətin mövcud tələbi ilə bu tələbin həyata keçirilə bilməməyi arasındakı konflikt dayanır". (7, 116) Həmin konfliktin, münaqişənin bir qütbündə artıq köhnəlmiş, ömrünü yaşayıb qurtarmış qüvvələr, ikinci qütbündə isə təzə doğulan, yeni qüvvələr dayanır. Təbii ki, "yeni" ilə "köhnə"nin faciəsi eyni formada təzahür eləmir, bir – birindən fərqlənir. Bu fərqləri ətraflı şərh edən M.Məmmədov yazır: "Köhnənin" faciəsi ondan ibarət olur ki, köhnə quruluş özünün haqlı və ədalətli olmasına özü inanır və yeni dünya ilə vuruşarkən tarixin əleyhinə getdiyini dərk etmir. O özünü haqlı bilir, halbuki əslində, aldanır, çaşır və onun əli ilə sanki tarix özü öz hərəkətinə qarşı çıxır. Faciə də elə bundan ibarət olur ki, müqavimət göstərən köhnəlik öz fərdi çaşqınlığını deyil, tarixi – ümumdünya çaşqınlığını, aldanışını ifadə edir" (8, 28-47)

"Köhnə"dən fərqli olaraq "yeni"nin faciəsi başqa formada təzahür edir; "köhnə" ilə mübarizədə yenilik özünə çətin yol açır, bəzən heç yol aça bilmir, yaşamalı ikən ölür. O, müasir tələb, tarixi zərurət olduğu halda, həmişə həqiqətə çevrilə və qalib gələ bilmir. Yaşamaq, özünü təsdiq etmək üçün köhnəlik, mühafizəkar mühit yeniliyə imkan vermir. Zərurətlə həqiqət arasındakı bu ziddiyyətdən, tələblə real imkan arasındakı təzadlardan şiddətli toqquşma və ölüm yaranır.

Nəhayət, ictimai həyatdan faciəviliyin yarana bilməsi üçün möhkəm xarakterə malik qüdrətli şəxsiyyətin olması da vacib şərtdir. Çunki adi vəziyyətdə xarakter hələ öz həqiqi mahiyyəti ilə meydana çıxmır. Hakim ictimai qüvvələr qarşısında öz köləliyinin sirləri, insan bədbəxtliyinin səbəbləri üzərində düşünür. Bu bədbəxtliyi aradan qaldırmaq, insanı iztirablardan azad etmək uğrunda öz iradəsindən yüksəkdə duran qüvvələrə qarşı şüurlu mübarizəyə qalxan şəxsiyyət tragediyanın qəhrəmanına çevrilir. Bu cür

qəhrəmanlar qeyri – adi xarakterə, yüksək zəkaya, böyük iradəyə və hissiyyata malik olurlar. "Xarakter böyüklüyü, mübarizə əzmi və iradəsi bu qəhrəmanın şəxsiyyətində daha aşkar görünür. Onun fikri də, əməli də öz fikri və məfkurəsi yolunda çəkdiyi iztirabları da böyük olur." (9, 286)

Faciəviliyin əsas əlamətlərindən sayılan xarakter böyüklüyü mənfi obrazlara aiddir. Çünki ictimai həyatda tragik şəxsiyyət öz təbiətinə, fəaliyyəti və əməllərinə görə mənfi planda da təqdim oluna bilər. Onun qarşısına qoyduğu məqsəd Xeyrin deyil, Şərin təntənəsinə xidmət edər. Hətta cəmiyyətdə baş vermiş bir sıra tarixi, siyasi hadisələrin mərkəzində qəddar, despot, qaniçən adamların dayandığı məlumdur. Belə məqamlarda folklor yaradıcıları xalqda həmin şəxsiyyətlərə qarşı kəskin nifrət hissləri oyatmaq üçün onların qəddarlığını və zülmkarlığını yüksək estetik hədlərə qaldırır, onların mənəvi eybəcərliyini əks etdirirlər.

Faciəvilik tarixi və milli səciyyə daşıyır. O, bütün dövrlərdə və bütün xalqlarda eyni şəkildə və eyni vaxtda təzahür etmir. Məsələn, qədim yunan ədəbiyyatında yazılı dramatik poeziya birbaşa faciə ilə başlayır. Şərq xalqlarının ədəbiyyatında isə faciə xüsusi dramatik janr kimi çox – çox sonralar formalaşır. (10, 6-10). Buna baxmayaraq, həm Şərq, həm də Qərb ictimai zəminində fəci əlamətlər təxminən eyni dövrdə görünür; həm yunan, həm ərəb, həm də türk mifik təfəkküründə ölüm və həyat qarşıdurması eyni dərəcədə qüvvətli əks olunur. Bununla bərabər, fəci hissləri hər bir xalq öz dünyagörüşünə , qədim mifik - əsatiri baxışlarına, ictimai – siyasi, əxlaqi – etik düşüncə tərzinə, nəhayət, bədii – estetik zövqünə görə yaşayır. Bu mənada Azərbaycan folklorunda da tragik ünsürlər, müxtəlif janrlarda təsadüf etdiyimiz faciəvi momentlər xalqın qədim görüşləri, əsatiri təsəvvürləri ilə yaxından səsləşir.

Gözəllik, ülvilik və başqa bədii – estetik kateqoriyalar kimi faciəvilik də bəşər həyatında çox qədim zamanlardan mövcuddur. İnsan azadlığı, zərurəti dərk etdiyi və sərbəstlik, müstəqillik uğrunda mübarizəyə qalxdığı ilk çağlardan, ölüm və həyat, əbədilik və fanilik barədə düşünməyə başladığı ən əski vaxtlardan fəci hadisələrlə rastlaşmış bu hadisələrə öz münasibətini bildirmişdir. Həmin münasibətlər isə öz bədii əksini ilk növbədə, xalqın

yaratdığı folklor nümunələrində tapmış, nağıl, dastan, rəvayət, əfsanə və əsatirlərdə yaşayaraq bu günə qədər gəlib çatmışdır.

**ƏDƏBİYYAT:**


1. Якубова С. Азербайджанское народное сказание «Ашыг Гариб». Баку: АН Азерб.ССР, 1968, 198 стр.
2. Təhmasib M.H.VII əsrə qədər Azərbaycan şifahi xalq ədəbiyyatı // Azərbaycan ədəbiyyatı tarixi: 3 cllddə, I cild.
3. "Ulduz" jurnalı, 1970, N 5, s. 3
4. Belinski V.Q. Seçilmiş əsərləri, Bakı, 1948, 165 s.
5. Геродот. История. Т. I, 1988, с. 58- 71
6. Bayatılar (toplayanı və tərtib edəni H.Qasımov). Bakı, Azərnəşr, 1956
7. Marks K., Engels F. Seçilmiş məktublar. Bakı, 1955, 116 s.
8. Məmmədov M. Azəri dramaturgiyasının estetik problemləri. Bakı, Azərnəşr, 1968
9. Məmmədov M. Estetika haqqında söhbətlər, Bakı, Azərnəşr, 1968
10. Qarayev Y. Faciə və qəhrəman, Bakı, EA nəşri, 1965


**Г.Караев**

**Политические, социальные и философские аспекты трагичности в Азербайджанском фольклоре**

**РЕЗЮМЕ**


В статье изучаются политические, философские и социальные аспекты трагичности в Азербайджанском фольклоре. Эти аспекты были исследованы на большом материале Азербайджанского фольклора, как лирического, так и эпического.

Автор подошел к трагичности как к эстетической и философской категории, выявил специфические особенности трагического героя эпического фольклора.

**G.Karayev**

## Political, social, philosophical aspects of tragedy in Azerbaijan folklore

### SUMMARY

The political, philosophical and social aspects of tragedy arc studied in this article. Thes aspects were researched on the rich material of Azerbaijan folklore, so lyrical as epic.

The author came up to the tragedy as aesthetic and phylosophy kategory exposed spesiphical peculiarities of tragedic hero of epic folklore.